# Azərbaycan və Qazaxıstan arasındakı layihələr qlobal ticarət və enerji təhlükəsizliyinə dəstək məqsədi daşıyır

**"Prezident İlham Əliyev son 3 ildə Qazaxıstana 7-ci səfərini həyata keçirdi. Bu səfərlər ikitərəfli əlaqələrin möhkəmlənməsinə xidmət etməklə yanaşı, həm də ümumilikdə türk dünyasında əməkdaşlıq və iş birliyinin inkişafına, qardaşlığın və həmrəyliyin möhkəmlənməsinə töhfə verir. Xüsusilə 2022-ci il əlamətdardır. Belə ki, həmin ildə Türkiyə, Azərbaycan və Qazaxıstan ərazisindən keçən Orta dəhlizin inkişafı üçün 2022-2027-ci illəri əhatə edən "Yol xəritəsi" qəbul olunub, fəaliyyət planı təsdiqlənib. Hazırda bu plan üzrə işlər davam etdirilir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) baş məsləhətçisi Şəhla Cəlilzadə söyləyib.

O bildirib ki, 2024-cü ildən etibarən Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Qazaxıstan neftinin ixracına başlanılıb. Ötən il Bakı-Tbilisi-Ceyhan vasitəsilə 1,4 milyon ton Qazaxıstan nefti daşınıb və qarşıdakı dövrdə bu həcmin artırılması nəzərdə tutulur. Türk Dövlətlər Təşkilatının 2025-ci ildə keçirilən 12-ci Qəbələ Zirvə görüşünün yekun bəyannaməsində Trans-Xəzər marşrutunun genişləndirilməsi məqsədi elan olunub. Başqa sözlə, Orta dəhlizin inkişafı çərçivəsində Xəzər dənizində enerji və nəqliyyat infrastrukturunun inkişafı nəzərdə tutulur. Bu, yalnız neft-qaz tranzitini deyil, həm də "yaşıl enerji dəhlizi"nin yaradılmasını, Rəqəmsal İpək yolu çərçivəsində Azərbaycanı və Qazaxıstanı birləşdirən Xəzər sualtı fiber-optik xəttin çəkilməsini və nəqliyyat-logistika imkanlarının genişləndirilməsini əhatə edir.

"Prezident İlham Əliyevin səfəri Azərbaycan ilə Qazaxıstan arasında Orta dəhliz üzrə ikitərəfli və çoxtərəfli layihələrin inkişafına, humanitar əlaqələrə, Xəzər dənizinin ekoloji problemlərinin həllinə, qarşılıqlı sərmayələrin artırılmasına və türk birliyinə əsaslanan mədəni əlaqələrin gücləndirilməsinə həsr olunub. Səfər çərçivəsində iki ölkə prezidenti "Orta dəhlizin inkişafı (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) birgə layihəsini təqdim ediblər. Xüsusilə Çin ilə Avropa arasında artan ticarət dövriyyəsində Azərbaycan və Qazaxıstan ərazilərindən qlobal daşımaların, eləcə də Qərbin enerji təhlükəsizliyində bu iki ölkənin rolunun getdikcə artması diqqət çəkir. Bu, türk dünyasının mühüm resurs və imkanlara, böyük potensiala malik olduğunu, geosiyasi təsir mexanizmlərinin yaradıldığını göstərir", - deyə Ş.Cəlilzadə vurğulayıb.

Ekspert əlavə edib ki, bütün bunlar türk dünyasının vahid məqsədlərinə və vizyonuna xidmət etməklə yanaşı, qlobal sülhə, əməkdaşlığa, münaqişə və təhdidlərdən kənarda yeni infrastrukturun inkişafı vasitəsilə digər region dövlətlərinin təhlükəsizlik qayğılarının aradan qaldırılmasına töhfə verə bilər.

Azərbaycan. - 2025.- 23 oktyabr (№ 227).- S.6.